**Türkiyənin Ankara şəhərində "Statistik məlumat bazasının layihələndirilməsi və təsvir vasitələrinin təkmilləşdirilməsi" mövzusunda təlim kursu keçirilmişdir.**




Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndələri Keyfiyyətin idarə olunması və informasiya texnologiyaları şöbəsi müdirinin müavini Çimnaz Əliyeva, Baş Hesablama Mərkəzinin Veb texnologiyalarının tətbiqi şöbəsi müdirinin müavini Elgün Xəlilzadə və Məlumat bazaları texnologiyalarının tətbiqi şöbəsinin proqramlaşdırıcısı İnanc Daşdəmirov 2013-cü ilin 11-12 dekabr tarixlərində İslam Əməkdaşlıq Təşkilatı Statistika Komissiyasının (OIC-StatCom), İslam ölkələri üçün Statistika, İqtisadi və Sosial Araşdırmalar və Tədris Mərkəzi (SESRIC) və İslam İnkişaf Bankının (IDB) təşkilatçılığı ilə Türkiyənin Ankara şəhərində "Statistik məlumat bazasının layihələndirilməsi və təsvir vasitələrinin təkmilləşdirilməsi" mövzusunda keçirilmiş təlim kursunda iştirak etmişlər.

Təlim kursunun təşkilində texniki dəstək: məruzəçilərin təmin edilməsi, kursun təşkili və digər məsələlərlə bağlı təchizat İslam ölkələri üçün Statistika, İqtisadi və Sosial Araşdırmalar və Tədris Mərkəzinin (SESRIC) əməkdaşları tərəfindən göstərilmişdir.

Təlim kursunun keçirilməsində əsas məqsəd, informasiya texnologiyaları infrastrukturu çərçivəsində məlumatların təsvir alətlərinin inkişafında statistik məlumat bazalarının layihələndirilməsi prinsipləri baxımından SESRİC-in dinamik qrafiklərinin (SESRIC Motion Chart (SMC)) statistika təşkilatlarında istifadəsi və təkmilləşdirilməsi yollarının təqdimatı, son nailiyyətlərin öyrənilməsi, müzakirəsi və məlumat istifadəçilərinin rahatlığının təmin edilməsi üçün müxtəlif proqramlaşdırma dillərindən və geniş istifadə olunan metodlardan istifadəyə diqqəti cəlb etmək idi.




Təlim kursunda Azərbaycan, Əfqanıstan, Banqladeş, Qambiya, İraq, Küveyt, Qırğızıstan, Malaziya, Niger, Oman, Pakistan, Fələstin, Qatar, Seneqal, Türkiyə və Yəmən də daxil olmaqla, İslam Əməkdaşlıq Təşkilatı Statistika Komissiyasının 16 üzv ölkəsindən gələn 30 mütəxəssis və İslam İnkişaf Bankının nümayəndəsi də iştirak etmişdir.

Təlimdə İslam ölkələri üçün Statistika, İqtisadi və Sosial Araşdırmalar və Tədris Mərkəzinin (SESRIC) statistika sahəsindəki fəaliyyəti haqqında qısa məlumat verilmiş və bu sahədə İslam ölkələri milli statistika orqanları ilə daima əməkdaşlıq etməyə hazır olduqları xüsusi qeyd edilmişdir. SESRIC-in statistika sahəsindəki fəaliyyətinin əsas hissələrindən biri kimi informasiya texnologiyaları sahəsində "Open Sources" məhsullarının istifadəsinin zəruriliyi xüsusi vurğulanmışdır.

Təlimdə milli statistika orqanlarının statistik məlumat bazasının istifadəçilərə daha aydın şəkildə çatdırılması üçün yayılan statistik məlumatların təsvir olunma üsuluna xüsusi diqqət yetirilməsi tövsiyə olunmuşdur.

